# C Ü D O



Cüdonun fəlsəfəsi üç forma – kimano, tatami, bədənlə bir mahiyyətin – cüdoçunun ruhunun vəhdətindən ibarətdir. Tatami və kimanonun böyük anlam kəsb etməsi cüdonun qaydalarında da özünü göstərir ki, bu da cüdoçuların tatamiyə girmədən əvvəl eləcədə məşqdən və ya yarışmadan əvvəl və sonra bir-birlərinə baş əyməlidir. Digər idman növlərindən fərqli olaraq cüdoda idmançıya, məşqçiyə və tatamiyə hörmət daha üstündür. Məsələn, Yaponiyada Kodokan Cüdo institutunda dünya, olimpiya çempionları məşqlərə başlamazdan əvvəl hörmət əlaməti olaraq tatamini silir və sonra məşqlərə başlayırlar. Cüdoda əsasən ağ kimonodan istifadə olunur. Bu da təmizlik nümunəsidir. Göy kimonodan istifadə olunmağının səbəbi isə iki idmançını yarış zamanı fərqləndirə bilməkdir.

Cüdonun idmançılardan əsas tələbi nizam-intizam, böyük-kiçiyə və hətta rəqibə hörmətdir. Cüdo yalnız fiziki gücə deyil, həm də zəkaya, alicənablılığa tərbiyədir. Cüdo özünü inkişaf etdirmə sənətidir. Həm təcrübəli, həm də yeni başlayan bir güləşçi cəsarətli, israrlı, təvazökar və digər insanlara hörmətli olmalıdır. Cüdo idman növü 1882-ci ildə Yaponiyada Kodakanda Dzikaro Kano tərəfindən yaradılmışdır. Hal-hazırda dünyada 200-ə yaxın ölkə Beynəlxalq Cüdo Federasiyasının üzvüdür.

## BÖLMƏNİN FƏALİYYƏTİ




ATU-da Cüdo bölməsi uzun illərdir fəaliyyət göstərir. Bu illər ərziində ATU tələbələri dəfələrlə ali təhsil müəssisələri tələbələrinin arasında keçirilən Respublika Universiadası və çempionatlarında komanda üzrə 1-ci yerə layiq görülüblər.

2023-cü ildə Memarlıq və İnşaat Universitetinin idman kompleksində cüdo idman növü üzrə ali təhsil müəssisələri arasında XV Respublika Universiadası keçirilib. Azərbaycan Tibb Universiteti də daxil olmaqla yarışa altı universitetdən 70-dən çox tələbə cüdoçu qatılıb. Əməkdar məşqçi Ələkbər Əliavsarovun rəhbərliyi altında ATU-nu müxtəlif çəki dərəcələrində 7 tələbə cüdoçu təmsil edib və qaliblər müəyyənləşib.



## MƏŞQÇİ-MÜƏLLİM




**Ələkbər Əliəsgər oğlu Əliavsarov** 1973-cü il 7 avqust tarixində Bakı şəhərində anadan olub. 1994-cü ildə Bədən Tərbiyəsi və İdman İnstitutunu fərqlənmə diplomu ilə bitirib. 2017-ci ildə Azərbaycan Tibb Universitetində cüdo üzrə məşqçi-müəllim kimi fəaliyyətə başlayıb. 2021-ci ildən “Təbib” idman klubunda (hazırda adı “Təbib” Tədris İdman Mərkəzi) Həmkarlar qrupunun sədri seçilib. Seçildiyi müddətdən müxtəlif mədəni-kütləvi tədbirlər təşkil edir və keçirilən bütün tədbirlərin təşkilati işlərində fəal iştirak edir. Məşqçilik fəaliyyəti illərində Avropa birinciliklərinin və kuboklarının, Böyük Dəbilqə turnirlərinin, İslam Həmrəyliyi Oyunlarının, Avropa Oyunlarının və Paralimpiya Oyunlarının qaliblərinin yetişdirilməsində böyük əməyi vardır. 2013-cü ildə Cüdo üzrə Azərbaycanın “Əməkdar məşqçi”si adına layiq görülüb. 2023-cü ildə Azərbaycan Respublikasının Prezidentinin müvafiq Sərəncamı ilə cüdo idman növündə göstərdiyi xidmətlərə görə “Tərəqqi” medalı ilə təltif edilib. 1 dərslik, 4 məqalə müəllifidir.